**Şərqiyyə Vəliş qızı HÜSEYNOVA**
Azərbaycan Dövlət İqtisad Universiteti, Magistr
E-mail: shargiyya.huseynova@gmail.com

# AZƏRBAYCANDA SOSİAL SFERADA XƏRCLƏRİN DİNAMİKASININ TƏHLİLİ

**Xülasə**

**Tədqiqatın məqsədi:** Bazar iqtisadiyyatı şəraitində inkişaf edən ölkələr iqtisadiyyatın ayrı-ayrı sahələrində iqtisadi artıma nail olmaq məqsədilə müxtəlif üsullardan istifadə edir. Burada təkcə iqtisadi fəaliyyət sahələrinin inkişafına deyil, həm də sosial sahələrin artımını təmin etmək üçün mütərəqqi üsulların seçilməsi olduqca vacibdir. Bu məqsədlə məqalədə sosial sahələrin inkişafı üzrə xərclərin dinamikasının təhlili əsas istiqamət kimi qəbul edilmişdir. Tədqiqatın yerinə yetirilməsində məqsəd, dövlətin sosial sahədə həyata keçirdiyi siyasətin səmərəliliyini müəyyən etmək üçün bu sahələrə xərclənən vəsaitlərin illik artım dinamikasını qiymətləndirməkdir. Burada müsbət dəyişikliklərin olub-olmadığını müəyyənləşdirərək səmərəliliyin artırılması yollarını aydınlaşdırmaqdır.

**Tədqiqatın metodu:** Tədqiqatın yerinə yetirilməsi zamanı müxtəlif analiz üsullarından, xüsusilə riyazi və statistik analiz metodlarından istifadə edilmişdir.

**Tədqiqatin nəticəsi:** Aparılan tədqiqatın nəticəsi göstərir ki, ölkəmizə sosial sahələrin inkişafı üzrə sərf edilən dövlət xərclərinin xüsusi çəkisi hər ötən ilə nisbətdə artırılmışdır. Bu hal dövlət tərəfindən son illər büdcə gəlirlərinin artmasına mütənasib olaraq sosial sahələrə sərf edilən vəsaitlərin, yüksəldilməsi siyasəti kimi qiymətləndirilə bilinər.

**Açar sözlər:** bazar iqtisadiyyatı, dövlət siyasəti, tənzimləmə, sosial siyasət, təhsil və səhiyyə sahəsi

**JEL: I 11, I 21, I 28**
**UOT:**336
**DOI:** https://doi.org/ 10.54414/XVSS7550

## Giriş

Dünya ölkələrinin iqtisadi inkişafına nəzər edərkən aydın olur ki, bəzi hallarda onların dayanıqlı inkişafını xarakterizə edən iqtisadi göstəricilər yüksək olsa da, onların sosial siyasət sahəsində reallaşdırdıqları iqtisadi siyasət tədbirləri heç də ürək açan səviyyədə deyil. Belə ki, yüksək iqtisadi səmərəlilik əldə etməkdə niyyətli olan ölkələr, iqtisadi fəaliyyət sahələrinin inkişafına köklədiyindən qeyri-kommersiya fəaliyyəti sahəsi kimi seçilən sosial sahələrə iqtisadi cəhətdən maraq göstərmirlər. Bu isə zamanla sosial sahələrdə müəyyən dərəcədə geriləmələrə və ya inkişafının ləngiməsinə gətirib çıxara bilir. Sosial sahələr müxtəlif tərəfliyi ilə seçilən sahə hesab edilir və onun əsas tərəfləri kimi elm-təhsil və səhiyyə sahəsi ayırd edilir. Bu məqsədlə hər iki sahə üzrə sərf edilən büdcə xərclərinin müqayisəli təhlilinə yer verilməsi məqsədəuyğun hesab edilmişdir.

## Dövlətin sosial siyasətinin əsas istiqamətləri

Milli iqtisadiyyatın inkişafında dövlətin sosial siyasəti müxətlif formalarda təzahür edərək ümumilikdə iqtisadiyyatın hərtərəfli inkişafına təkan verən, onun inkişafının sürətliliyini təmin edən parametr kimi çıxış edir. Dövlətin sosial siyasətinin əsas tərəfləri kimi çıxış edən əsas sosial dəstəkləyici tədbirləri aşağıdakı kimi ayırd etmək olar:

- ✓ aztəminatlı ailələrə maddi yardımların edilməsi;
- ✓ həssas ailə (fərdlər) siniflərinə aid olan ailələrə (fərdlərə) ərzaq məhsulları ilə dəstəyin göstərilməsi;
- ✓ əhalinin müxtəlif təbəqələri üzrə iqtisadi məşğulluğun yaradılması hesabına kəskin gəlir fərqlərinin aradan qaldırılması;
- ✓ mədəniyyət və digər ictimai iaişə sahəsində işlərin aparılması və yüksəlişin təmin edilməsi üçün dəstəyin göstərilməsi;

✓ əhalinin ayrı-ayrı siniflərindən olan uşaqlara bərabər şərtlər daxilində təhsil almaları üçün şəraitin yaradılması;

✓ elm-təhsil sahəsində yeniliklərin edilməsi və bu sahədə tədqiqatların genişləndirilməsi məqsədilə maliyyə və institusional dəstəyin göstərilməsi;

✓ hər bir fərdə səhiyyə xidmətlərindən istifadə etməsi üçün və bərabər mühitin yaradılması və.s [3, s.34].

Qeyd edilənlər dövlətin sosial sahənin inkişafı üzrə reallaşdırdığı dəstəkləyici siyasət tədbirlərindən bir neçəsidir. Ancaq bununla bərabər çoxsaylı sosial siyasət tədbirləri var ki, onların hər biri ölkənin sosial inkişafının təmin edilməsi sahəsində müəyyən rola malikdir. Tədqiqatın lokanikliyini nəzərə alaraq məqalədə əsas sosial siyasət istiqaməti hesab edilən elm-təhsil, səhiyyə sahəsində reallaşdırılan dövlət xərclərinin müxtəlif illər üzrə dəyişmə dinamikasına yer verilmişdir. Çünki elm-təhsil, səhiyyə sahəsində dövlət xərclərinin artırılması bu sahədə sonrakı keyfiyyət dəyişikliyinə təsir edən başlıca məqam kimi qiymətləndirilir [2, s.127].

**Azərbaycanda sosial sahənin aparıcı istiqamətləri üzrə dövlət xərclərinin mövcud vəziyyətinin təhlili**

Ölkəmizdə dövlətin sosial sahədə reallaşdığı siyasətin effektivliyini müəyyən etmək məqsədilə bu sahəyə ayrılan vəsaitlərin illik dəyişmə dinamikasına diqqət edilməsi vacibdir. Diaqram 1-in məlumatlarına diqqət edərkən aydın olur ki, 2000-ci ildə təhsil sahəsinə çəkilən xərclərin ümumi həcmi 181.8 mln manat olmuşdur. Həmin ildə elm sahəsinə sərf edilən ümumi vəsaitlərin həcmi 9.3 mln manat, tədqiqat sahəsinə çəkilən xərclərin həcmi isə 15.9 mln manat təşkil etmişdir. Dövlət büdcəsindən elmə çəkilən xərclərin ÜDM-da xüsusi çəkisini müəyyən edərkən aydın olur ki, bu nisbət 0.2 %, tədqiqata çəkilən xərclərdə isə 0.3% səviyyəsindədir. 2000-ci ildə elm sahəsinə çəkilən xərclərin dövlət xərclərində ki, xüsusi çəkisi 1.2 % səviyyəsində olmuşdur ki, bu da yüksək göstərici hesab edilmir. 2010-cu ilə nəzər etdik də, 2000-ci ilə müqayisədə elm sahəsinə sərf edilən vəsaitlərin kəmiyyətinin təqribən 10.0 dəfə artdığı aydınlaşır [6].

***Diaqram 1***

**Elm-təhsil sahəsində çəkilən dövlət xərclərinin dinamikası, mln manat ilə**




| | 2000 | 2010 | 2015 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| Elm üçün | 9.3 | 92.8 | 113.2 | 151.8 | 167.8 |
| Tədqiqat üçün | 15.9 | 92.8 | 120.9 | 194.2 | 202.7 |
| Təhsilə çəkilən xərclər | 181.8 | 1180.8 | 1605.1 | 3277.5 | 3886.6 |

***Mənbə:*** *Dövlət Statistika Komitəsinin məlumatlarına istinadən tərtib edilmişdir*

Müqayisəsi aparılan illərdə tədqiqat xərclərinin kəmiyyəti 5.8 dəfə artaraq, 2010-cu ildə 92.8 mln manata çatmışdır. 2010-cu ilə nisbətdə 2021-ci ilə baxıldığında elmə çəkilən xərclərin 21.9%, tədqiqata ayrılan vəsaitlərin 30.4% artdığını görürük. 2021-ci ildə elmə çəkilən xərclərin ÜDM-da xüsusi çəkisi 0.16%, dövlət büdcəsinin xərclərində ki payı isə 0.55% səviyyəsində olmuşdur. 2021-ci ildə tədqiqata çəkilən xərclərin ÜDM-a nisbətdə xüsusi çəkisi 0.2% (194.2 mln manat) təşkil etmişdir. 2021-ci il ilə 2022-ci ili qarşılaşdırdığımızda elmə çəkilən xərclərin nisbi artımının 10.5%, tədqiqat çəkilən xərclərin nisbi artımının 4.1% olduğunu

müəyyən etmiş oluruq. 2021-ci il ilə müqayisədə 2022-ci ildə təhsilə çəkilən xərclərin xüsusi çəkisi təqribən 18.5% yüksəlmişdir. Təhsil sahəsinə çəkilən xərcləri 2015-ci il ilə qarşılaşdırdığımızda 2022-ci ildə bu xərclərin kəmiyyətinin 2.4 dəfə artdığı aydın olur. 2022-ci ildə təhsil üzrə çəkilən xərclərin 377.1 mln manatı məktəbəqədər təhsilə, 2.1 mlrd manatı ümumi təhsilə, 63.8 mln manatı peşə təhsilinə, 87.3 mln manatı orta təhsilə, 60.2 mln manatı isə ali təhsilin inkişafına istiqamətlənmişdir [6]. Beləliklə son illərin elm, təhsil tədqiqat xərcləri üzrə ayırmaları bizə göstərir ki, əslində təhsilə çəkilən xərclər digər sahələrə çəkilən xərclərlə müqayisədə daha çox artım dinamikası göstərmişdir. Təhsil sahəsinə sərf edilən vəsaitlərin illər üzrə artmasının təsiri ilə ölkəmizdə təhsil sektorunda çoxsaylı müsbət dəyişikliklərə nail olunmuşdur. Belə dəyişikliklər sırasında təhsilin keyfiyyət göstəricilərinin artırılması üzrə müxtəlif tədbirlərin təşkili, o cümlədən elektron sistemlərdən istifadənin genişləndirilməsi, kurikulum təhsil metodlarından bəhrələnilməsi olduqca müsbət keyfiyyət dəyişikliklərinə gətirib çıxarmışdır. Təhsil sahəsində əldə edilən uğurlar orta bal göstəricilərinin ötən illərə nisbətdə yüksək olması ilə öz əksini tapır. Hazırda ölkəmizdə elm-tədqiqat sahəsində irəliləyişlərin təmin edilməsi üçün dövlət dəstəkləyici tədbirlərin artırılması müşahidə edilir. Bu sahədə çətinliklərin aradan qaldırılması və təşviqin genişləndirilməsi üçün müxtəlif qrant layihələrinin icra edilməsi buna əyani misal ola bilər. Bunun əyaniliyini, ötən dövrlə müqayisədə hər iki istiqamət üzrə dövlət xərclərinin artımından görmək olar. Beləliklə təhlildən əldə edilən nəticə göstərir ki, artımlar kifayət qədər yüksəkdir və bu olduqca yaxşı hal hesab edilir.

Bazar iqtisadiyyatı şəraitində dövlətin digər vacib sosial sahəsi hesab edilən səhiyyə sektoru üzrə reallaşdırdığı siyasətdə hansı dəyişikliklərin baş verdiyini müəyyənləşdirmək məqsədilə, səhiyyə sahəsinə çəkilən xərclərin illik dəyişmə səviyyəsinə nəzər etmək vacibdir. Səhiyyə sektoru sosial sahələr içərisində dəstəklənilməsi ən vacib, zəruri sahələrdən hesab edilir [2, s.118]. Belə ki, artan qlobal meyllər və dövlətlərin qarşılıqlı təsirlərinin təzahüründən irəli gələrək müxtəlif səviyyəli səhiyyə risklərinin neytrallaşdırılması və cəmiyyətin sağlamlığının təminatçısı kimi bu sahənin himayə edilməsi olduqca vacibdir. Hazırda səhiyyə sahəsində dəstəkləyici tədbirlər iki istiqamətdə aparılır. Bunlardan biri tibbi təhsil sahəsində, digəri isə tibb sahəsində çalışan mütəxəsislərin sağlam iş mühitində fəaliyyətinin təmin edilməsi üzrə reallaşdırılır. Yəni müxtəlif xəstəxana və poliklinikaların texniki təminat imkanlarının yaxşılaşdırılması və müasirləşdirilməsi sahəsində həyata keçirilir. Səhiyyə sahəsində xərclərin hansı istiqamət üzrə dəyişməsini müəyyən etmək üçün diaqram 2-də bu sahəyə ayrılan vəsaitlərin illər üzrə müvafiq səviyyəsi öz əksini tapmışdır.

***Diaqram 2***

**Səhiyyə sahəsində çəkilən dövlət xərclərinin dinamikası, mln manat ilə**




***Mənbə:*** *Dövlət Statistika Komitəsinin məlumatlarına istinadən tərtib edilmişdir*

Diaqramda 2-dən görülən odur ki, səhiyyə üzrə 2000-ci ildə sərf edilən vəsaitlərin ümumi kəmiyyəti 40.9 mln manat həcmində olmuşdur. Dövlət büdcəsinin xərclərinə nisbətdə səhiyyə sahəsinə sərf edilən xərclərin xüsusi çəkisi 5.3% təşkil etmişdir. 2000-ci il ilə müqayisədə 2010-cu ilə baxıldığında səhiyyə sahəsinə sərf edilən vəsaitlərin artım kəmiyyəti 10.5 dəfə olmuşdur. 2010-cu ildə səhiyyə sahəsinə cəlb edilən dövlət xərclərinin kəmiyyəti, ümumi büdcə xərclərinin həcminə nisbətdə 3.6 %-ə bərabərdir. Səhiyyə sahəsinə cəlb edilən vəsaitlərin son on ildə bucür kəskin artmasına təsir edən amil, ölkəmizin büdcə gəlirlərinin artması ilə izzah edilə bilinər. Təhlili bir sonrakı on illik üzrə aparsaq onda görərik ki, 2010-cu il ilə müqayisədə 2021-ci ildə səhiyyə xərclərinin kəmiyyəti 3.3 dəfə artaraq 1.4 mlrd manat səviyyəsinə çatmışdır. Səhiyyə sahəsinin inkişafı məqsədilə sərf edilən vəsaitlərin 2022-ci il üzrə həcminə baxdığımızda dövlət xərclərinin təqribən 5.5%-nin məhz bu sahəyə istiqamətləndiyini görmək olar. Cari ildə dövlət büdcəsindən sərf edilən xərclərin (32 mln 303 mln) təqribən 1.8 mlrd manatı sahəninin inkişafı üzrə xərclənmişdir [5]. Səhiyyə xərclərinin son illər üzrə müqayisəsi göstərir ki, dövlətin sosial sahələr içərisində inkişafını dəstəklədiyi vacib sahələrdən biri məhz səhiyyə sahəsidir və onun mürəqqi üsullarla inkişafı dövlətin strateji siyasətinin bir parçası kimi çıxış edir.

Dövlət büdcəsindən sosial müdafiəsi məqsədilə xərclənən vəsaitlərə baxıldığında, 2022-ci ildə sosial müdafiə sahəsində sərf edilən xərclərin kəmiyyətinin 3.7 mlrd manat təşkil etdiyini görürük. Daha dəqiq desək hesabat ili üzrə dövlət büdcəsinin xərclər hissəsinin təqribən 3 mlrd 728 mln manatı və ya 11.5 %-i sosial müdafiə və sosial təminat sahəsində istifadə edilmişdir. Bu isə dövlətin sosial sahəyə diqqətinin yüksək olması ilə izzah edilə bilinər. Sosial sahə üzrə xərclənən vəsaitlərin əsas hissəsi sosial müavinətlər şəklində əhalinin aztəminatlı hissəsinə ödənildiyindən, illər üzrə bu sahədə hansı dəyişikliklər baş verdiyini öyrənmək üçün diaqram 3-də sosial müvanət təyin edilən ölkə əhalisinin aztəminatlı hissəsinin sayına yer verilmişdir.

***Diaqram 3***

**Sosial müavinət təyin olunmuş şəxslərin sayı, nəfər, min nəfər**




***Mənbə:*** *Dövlət Statistika Komitəsinin məlumatlarına istinadən tərtib edilmişdir*

İllər üzrə baxıldığında ölkəmizdə 2010-cu ildə sosial müavinət alan aztəminatlı şəxslərin sayının 293 min 523 nəfər təşkil etdiyini görmək olur. Sonrakı beş ildə daha dəqiq desək 2010-cu il ilə müqayisədə, 2015-ci ildə sosial müavinət alanların sayı 15.2% artmışdır. Həmin illərin müqayisəsində bir nəfərə düşən orta aylıq məbləğin həcmidə yüksəlmişdir. Belə ki, 2010-cu ildə bu kəmiyyət 34.5 manat, 2015-ci ildə isə 50.6 manat olmuşdur ki, bu da 46.6% artım deməkdir. 2015-ci il ilə 2021-ci ili qarşılaşdırdığımızda sosial müavinət təyin edilənlərin sayının 21.7% artığını görmək olar. 2021-ci ildə bir nəfərə düşən orta aylıq

müavinətin məbləği 2015-ci il ilə müqayisədə təqribən 2.3 dəfə artaraq, 118.2 manata çatmışdır. Hesabat ilinə baxdığımızda müavinət alanların sayının daha da yüksələrək 418 min nəfəri keçdiyi aydın olur . Cari ildə bir nəfərə düşən sosial müavinətin orta məbləği 157.1 manat səviyyəsində olmuşdur ki, bu da 2010-cu ildə ki, kəmiyyət ilə müqayisədə təqribən 4.6 dəfə daha çoxdur [5]. Sosial müdafiə sahəsində dövlət siyasətinin təhlilindən aydın olur ki, ölkəmizdə aztəminatlı ailələrə verilən müavinətlərin miqyası genişləndirilməkdədir. Burada baza ili ilə müqayisədə ödənilən ödənişlərində kəmiyyətində əsaslı yüksəlişə nail olunmuşdur ki, bu da əhalinin ehtiyyaclarının ödənilməsində önəmli rola malikdir. Ancaq onu da qeyd edək ki, dövlətin sosial müavinətlərinin həm kəmiyyət, həm də miqyasının genişləndirilməsi büdcə xərclərinin yüksəlməsinə səbəb olur ki, bu da dövlət büdcəsinin gəlirlərinin artırılmasını şərtləndirir [4, s.566].

**Nəticə**

Tədqiqatın yerinə yetirilməsindən əldə edilən nəticə göstərir ki, dövlət büdcəsinin xərclərinin artmasına mütənasib olaraq onun sosial xərclərinin kəmiyyətidə yüksəlmişdir. Xüsusilə son illər dövlətin neft və qeyri-neft sektoru üzrə gəlirlərinin, o cümlədən vergi və gömrük sahəsindən daxil olan vəsaitlərin kəmiyyətinin artması bu sahələrin hər birinə çəkilən xərclərində yüksəlməsinə səbəb olmuşdur. Beləliklə aydın olur ki, dövlətimiz sosial siyasət tədbirləri effektivliyi ilə seçilir. Ancaq bununla bərabər tədqiqatın elmi yeniliyi kimi deyə bilərik ki, sosial sahələrə sərf edilən xərclərin dəyişmə dinamikasına uyğun olaraq illər üzrə onun keyfiyyət dəyişikliyinin qiymətləndirilməsi olduqca vacibdir. Tədqiqatın əhəmiyyəti və iqtisadi səmərəsi bu istiqamət üzrə gələcəkdə tədqiq edilməsi nəzərdə tutulan məqalə və tezislərin hazırlanılmasında istifadəsi ilə müəyyən edilə bilinər.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Sosial müavinətlər haqqında Azərbaycan Respublikası qanunu, Bakı, 7 fevral 2006-cı il
2. Abdullayeva R., Sosial sferanın iqtisadiyyatı, Bakı 2009
3. Rəhmanov F., Sosial sfera və sosial siyasət. Dərs vəsaiti. Bakı 2021
4. Popova Y, Marina K., İnterdependence of HDİ and budget redistribution within the Scandinavian and European social models, Economics and Management V18.N3, 2013 DOI: https://doi.org/10.5755/j01.em.18.3.4220
5. https://www.stat.gov.az/source/healthcare/
6. https://www.stat.gov.az/source/education/


**Шаркийя Валиш Гусейнова**
Азербайджанский Государственный Экономический Университет
E-mail: shargiyya.huseynova@gmail.com

# АНАЛИЗ ДИНАМИКИ ЗАТРАТ В СОЦИАЛЬНОЙ СФЕРЕ В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

**Цель исследования:** Страны, развивающиеся в условиях рыночной экономики, пошли по определенному пути с целью достижения экономического роста в различных сферах экономики. Здесь очень важно выбирать прогрессивные методы, обеспечивающие развитие не только экономической сферы, но и рост социальной сферы. Для этого в статье в качестве основного направления рассмотрен анализ динамики затрат на развитие социальных территорий. Цель исследования - оценить ежегодную динамику роста средств, расходуемых по данным направлениям, с целью определения эффективности политики, реализуемой государством в социальной сфере. Здесь необходимо прояснить способы повышения эффективности, определив, есть ли положительные изменения.

**Метод исследования:** В ходе исследования использовались различные методы анализа, особенно методы математического и статистического анализа.

**Результат исследования:** Результат проведенного исследования показывает, что удельный вес государственных расходов, потраченных на развитие социальной сферы в нашей стране, увеличился по сравнению с каждым предыдущим годом. Данную ситуацию можно оценить как увеличение средств, расходуемых на социальную сферу, пропорционально увеличению доходов государственного бюджета в последние годы.

**Ключевые слова:** рыночная экономика, государственная политика, регулирование, социальная политика, образование и здравоохранение.

**Shargiyya Valish Huseynova**
Azerbaijan State Economic University
Email: shargiyya.huseynova@gmail.com

## ANALYSIS OF THE DYNAMICS OF COSTS IN THE SOCIAL SPHERE IN AZERBAIJAN

### Summary

**The purpose of the study:** Countries developing in the market economy have taken a certain path in order to achieve economic growth in different areas of the economy. Here, it is very important to choose progressive methods to ensure the development of not only the economic spheres, but also the growth of social spheres. For this purpose, in the article, the analysis of the dynamics of costs for the development of social areas was considered as the main direction. The purpose of the research is to evaluate the annual growth dynamics of the funds spent on these areas in order to determine the efficiency of the policy implemented by the state in the social sphere. Here is to clarify ways to improve efficiency by determining whether there are positive changes.

**Method of research:** Various analysis methods, especially mathematical and statistical analysis methods, were used during the research.

**Research conclusions:** The result of the conducted research shows that the specific weight of the state expenses spent on the development of social fields in our country has been increased in comparison with every previous year. This situation can be evaluated as an increase in the funds spent on social fields in proportion to the increase in the income of the state budget in recent years.

**Keywords:** market economy, public policy, regulation, social policy, education and health care